# Azərbaycan dünya miqyasında makroiqtisadi sabitliyə malik ölkə kimi tanınır



**Son illər ərzində yeni qlobal iqtisadi reallıqlara uyğun olaraq həyata keçirilən davamlı tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik və dayanıqlılığın əsasları yaradılıb. Tədiyə balansı tarazlaşıb, valyuta ehtiyatlarına təzyiq azalıb, milli valyutanın xarici dəyəri sabitləşib və inflyasiya gözləntiləri səngiyib.**

Respublikada müəyyən antiböhran tədbirlərini reallaşdıraraq, sabit makroiqtisadi şəraitə nail olan Azərbaycan hazırda bölgədə iqtisadi inkişafı və inteqrasiyanı təşviq edən lider dövlət statusunu qoruyub saxlayır. Prezident İlham Əliyevin 2015-ci ilin əvvəlindən həyata keçirdiyi antiböhran tədbirləri sistemliliyi və ardıcıllığı ilə diqqəti çəkir. Bu tədbirlərin əsas xəttində sahibkarlıq fəaliyyətinə mane olan süni əngəllərin aradan qaldırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi mühüm önəm daşıyır.

Məhz elə buna görə də dövlət başçısının son 16 ildə imzaladığı bir sıra dövlət proqramları qeyri-neft sektorunun möhkəmləndirilməsini, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılmasını, infrastrukturun yeniləşdirilməsini reallaşdıran kompleks sənədlər olmaqla yanaşı, bölgələrdə özəl sektorun və sahibkarlığın inkişafına da təkan verib. Bu baxımdan üç regional dövlət proqramının uğurlu icrası, hazırda isə sözügedən istiqamətdə dördüncü proqramın gerçəkləşdirilməsi xüsusi əhəmiyyət kəsb etməklə, bölgələrdə intibah mərhələsinin əsasını qoyub, sahibkarlığın yüksəlişinə əlverişli zəmin yaradıb.

Xatırladaq ki, son bir ildə makroiqtisadi sahədə əldə edilən müsbət göstəricilər də vurğulanan fikrin bariz ifadəsidir. Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda ölkədə makroiqtisadi siyasət barədə danışarkən bu sahədə vəziyyətin tam sabit olduğunu diqqətə çatdırıb: “İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir, əhalinin gəlirləri isə 7,4 faiz. Yəni, həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələmişdir. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmışdır. Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir. Baxmayaraq ki, büdcəmiz rekord həddə çatmışdır, biz yenə də valyuta ehtiyatlarımızı artırmışıq. Bu, daim belə olubdur. Hətta bizim üçün ən ağır, böhranlı illərdə, - o vaxt ki, dünya bazarlarında neftin qiyməti dörd dəfə düşmüşdü, - yenə də biz valyuta ehtiyatlarımızı artırmışdıq. Ancaq keçən il 6,4 milyard dollar həcmində artım, əlbəttə ki, düşünülmüş siyasəti əks etdirir”.



Dövlətimizin başçısı daha sonra bildirib ki, ölkəmizə böyük sərmayə qoyuluşu və valyuta ehtiyatlarımızın artımı bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolla gedəcəyik. Yanvar ayını nəzərə alsaq, Azərbaycanın valyuta ehtiyatları artıq 52 milyard dollara çatıb, təkcə keçən ay ərzində 1 milyard dollar artıb: “Bu, bizim strateji ehtiyatımızdır. Bu, bizim iqtisadi müstəqilliyimizi və böyük dərəcədə siyasi müstəqilliyimizi təmin edir”.

Azərbaycanda makroiqtisadi sabitliyi möhkəmləndirən ən mühüm şərtlərdən biri sahibkarlığın inkişaf etdirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılmasıdır. Sahibkarlığın inkişafı, özəl bölmənin tərəqqisi Azərbaycan hökumətinin prioritetlərindən biridir. Bu məqsədlə mütərəqqi qanunvericilik bazası möhkəmləndirilir, bu sahəyə səmərəli dövlət dəstəyi mexanizmləri formalaşdırılır, beynəlxalq təcrübədə uğurla sınaqdan çıxan təşkilati-hüquqi modellər, o cümlədən sənaye parkları və məhəllələri, aqroparklar, biznes inkubatorları yaradılır. Bununla yanaşı, dövlət idarəetmə sistemində, məhkəmə və hüquq, korrupsiyaya qarşı mübarizə sahələrində ciddi institusional islahatlar aparılır. Eyni zamanda, investorların hüquqları etibarlı şəkildə qorunur, inzibati prosedurlar sadələşdirilir və şəffaf mexanizmlər tətbiq edilir.

Makroiqtisadi sabitlikdən danışarkən, diqqəti büdcə amilinə də yönəltmək istərdik. Belə ki, son illərin dövlət büdcələri respublikamızın qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləyən ölkə olduğunu bir daha təsdiqləyir. Büdcə hazırlanarkən, qeyri-neft sektorunun inkişafı, makroiqtisadi sabitliyin təmini, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, ixrac qabiliyyətinin artırılması, regionların davamlı və tarazlı inkişafının təmin edilməsi, sosialyönümlü siyasətin prioritetliyinin qorunub saxlanılması, maliyyə intizamının gücləndirilməsi, şəffaflığın artırılması kimi məsələlərə daha çox önəm verilir.

Dövlət büdcəsinin sosialyönümlü xarakter daşıması da təsadüfi deyil. Çünki ölkəmizdə əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını tam təsdiqləyib. Qeyri-neft sektorunun inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan islahatlar yoxsulluğun səviyyəsinin azaldılmasına, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkənin məşğulluq strategiyasının səmərəliliyinə imkan verib.

Hökumətin müxtəlif kateqoriyaları əhatə edən vətəndaşların sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə xidmət edən iqtisadi siyasəti ümumən insan amilinin inkişafına təkan verir. Respublikanın dövlət büdcəsinin strukturuna əsasən, obyektiv səbəblərdən çalışmaq və zəhmətdən gəlir əldə etmək imkanından məhrum olan vətəndaşların problemləri xüsusi diqqət mərkəzində saxlanılır. Hökumət azad iqtisadi münasibətlərə, azad rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də nəzərdən qaçırmır.

Azərbaycanda makroiqtisadi sabitliyin qorunub saxlanılmasında strateji yol xəritələri də mühüm önəm daşıyır. Bu xəritələrdə qeyri-neft sektoruna əsaslanan iqtisadi inkişaf modeli qarşıya prioritet vəzifə kimi qoyulub. Başqa sözlə, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində Azərbaycanın perspektivli və potensial üstün sahələri müəyyənləşdirilib, 2025-ci il və sonrakı dövr üçün görüləcək tədbirlər öz aydın ifadəsini tapıb.

Yuxarıda qeyd edilənləri yekunlaşdırıb deyə bilərik ki, iqtisadi dayanıqlılığın mühüm əsaslarından olan makroiqtisadi sabitliyin dərinləşdirilməsi hökumətin fəaliyyətində prioritet istiqamətlərindən birinə çevrilib. Ona görə də həyata keçirilən şaxələndirmə tədbirləri, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində qeyri-neft sektorunun dinamik inkişafı təmin olunub.

Milli iqtisadi modeli, makroiqtisadi uğurları ilə dünyanın aparıcı maliyyə mərkəzlərinin də diqqət mərkəzində olan, insan amilinin yüksəlişinə xidmət edən qlobal infrastruktur layihələrini inamla həyata keçirən, sosial məsələlərə geniş diqqət ayıran Azərbaycan bu gün davamlı inkişaf edir. “Biz xalq üçün işləyirik. Məqsədimiz də odur ki, ölkə vətəndaşları vəziyyətin ildənilə daha da yaxşılaşmasını görsünlər, bunu gündəlik həyatlarında hiss etsinlər” – deyən Prezident İlham Əliyev bu məqsədə xidmət edən çoxşaxəli islahatları çevik və işlək mexanizmlər üzərində reallaşdırır, davamlı yüksəlişi təmin etmək üçün ölkənin daxili potensialından səmərəli şəkildə bəhrələnir. Tam əminliklə demək olar ki, bu iqtisadi siyasət ölkəmizi dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxaracaq.

***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 7 fevral.- S.9.